**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№345/3** **30 iyun 2022-ci il**

**“Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2022-ci il 25 fevral tarixli 1/12 nömrəli sərəncamı ilə təsdiq edilmiş “Auditor xidməti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Tədbirlər Planı”nın 8-ci “Auditor xidmətinə görə ödənişlərin prinsipləri haqqında Əsasnamənin hazırlanması” bəndinin icrasını təmin etmək məqsədilə işçi qrupu (işçi qrupunun rəhbəri - S.Gülməmmədov) tərəfindən hazırlanmış “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin layihəsi təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatası sədrinin elmi-metodik məslələr üzrə müşavirinə (N.Talıbov) və Palatanın Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin müddəalarından irəli gələn məsələlərin auditor təşkilatları və sərbəst auditorlar tərəfindən icra olunmasına dair 2022-ci ilin III rübündə seminarın keçirilməsini təmin etsinlər.

3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin auditorlara çatdırılması təmin edilsin.

4. Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli) tapşırılsın ki:

4.1. “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin müddəalarından irəli gələn məsələlərin auditor təşkilatları və sərbəst auditorlar tərəfindən icra olunmasına nəzarət etsin;

4.2. “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin tələblərinə riayət etmədikləri halda auditor təşkilatları və sərbəst auditorlar barədə inzibati tədbirlər görülməsinə dair təkliflərini versin.

5. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və “Auditor xidmətləri üzrə xidmət haqqının müəyyən edilməsi prinsipləri haqqında” Əsasnamənin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**